

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 54 (23.941)

19 mart 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir: "Azərbaycan torpağında qədim köklərə malik Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur. Ulu əcdadımızın zəngin daxili aləminin və nikbin dünyagörüşünün dolğun təcəssümü olan bu el bayramı yüzillərdən bəri varlığımızın ən dərin qatlarına nüfuz etmiş, milli özünüdərkin təşəkkülünə töhfələr vermiş, ali dəyərlərin daşıyıcısına çevrilərək insanlarımızı vahid mənəviyyat ətrafında daim bir-birinə yaxınlaşdırmışdır.

Tariximizin taleyüklü anlarında gələcəyə inamımızı biz, eyni zamanda Bahar bayramının bəxş etdiyi mənəvi güc sayəsində qoruyub saxlamışıq. Qloballaşma dalğasının vüsətli dövründə Novruz ənənələrinin müqəddəs ərməğan kimi uca tutulması və bütün rəngarəngliyi ilə yaşadılması çoxəsrlik mədəni irsimizə ehtiramımızın ifadəsidir.

Məhz parlaq Zəfərimizin qat-qat gücləndirdiyi xoş bahar ovqatı içində artıq ikinci ildir ki, azadlığına qovuşmuş torpaqlarımızda hazırda yüksək sürətlə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Yaz ətirli bayramımız bizi daha şövqlə çalışıb indi rahat nəfəs alan bu doğma yurd yerlərini qısa müddətdə abadlaşdırmağa və öz əvvəlki dinc həyatına qaytarmağa ruhlandırır".

Dövlətimizin başçısı təbrikində demişdir: "İrəlidə bizi ümumxalq əhəmiyyətli mühüm vəzifələrin həlli gözləyir. İnanıram ki, hər birimiz yaz fəslinin yeniləşdirici ab-havası ilə həmahəng ruh yüksəkliyi və həmrəylik şəraitində qurub-yaratmaq əzmi nümayiş etdirəcək, Qarabağa böyük qayıdış planımızı uğurla gerçəkləşdirəcəyik.

## Çanaqqala zəfərinin 107-ci ildönümü qeyd olunub



*Türk xalqının ölüm-dirim savaşında qazandığı Çanaqqala zəfərinin 107-ci ildönümü və şəhidləri anma günü münasibətilə Naxçıvanda tədbir keçirilib.*

Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında təşkil olunan mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Xarici Əlaqələr üzrə baş məsləhətçisi Beyrək Cəfərov, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli, Türkiyə ordusunun zabitləri, bir sıra təşkilat, media nümayəndələri iştirak ediblər. Mərasimdə əvvəlcə Azərbaycan və Türkiyənin ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib, tədbir iştirakçıları türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə önünə əklil və gül dəstələri qoyublar.

Tədbirdə çıxış edən Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz bildirib ki, şəhidlərimizin sarsılmaz Vətən sevgisi ən böyük qürurumuz, zənginliyimiz və gücümüzdür. Tarixi qəhrəmanlıqlarla dolu olan xalqımız 107 il əvvəl Çanaqqalada böyük bir tarix yazıb və torpaqlarımızın işğalına heç vaxt razı olmayacağını dünyaya nümayiş etdirib. Çanaqqala döyüşündə 3 minə yaxın azərbaycanlı da iştirak edib və qardaş ölkənin müstəqilliyi uğrunda canlarından keçib. Çanaqqala şəhidlərinin əziz xatirəsi heç vaxt unudulmayacaq. Bu möhtəşəm zəfər məhv olmaq təhlükəsində olan bir ölkənin şanlı qələbəsidir. Bu zəfər türk millətinin gücünün və sarsılmazlığının ifadəsidir.

Baş konsul qeyd edib ki, 2020-ci ildə Azərbaycanın Vətən müharibəsindəki haqlı Qələbəsi qardaş Türkiyədə də böyük coşqu ilə qarşılanıb. Müharibənin başlandığı ilk gündən Türkiyə qardaş Azərbaycana bütün imkanları ilə öz mənəvi dəstəyini göstərib. Ötən il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması da dostluq və qardaşlığımızın ən bariz nümunəsidir.

Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanını ziyarət edib, Ana abidəsinin önünə gül dəstələri qoyub, şəhidlərin xatirəsinə ehtiramlarını bildiriblər.

Qeyd edək ki, Çanaqqala zəfərinin 107-ci ildönümü ilə bağlı Naxçıvan şəhərində salınan Türkiyə-Naxçıvan Dostluq Parkında ağacəkmə aksiyası keçirilib, sonda xatirə şəkli çəkdirilib.

**Nail ƏSGƏROV**

## Tələbələrin istehsalat təcrübəsi başa çatıb



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının IV kurs tələbələrinin nazirlikdə keçdikləri istehsalat təcrübəsinin başa çatması ilə əlaqədar tədbir keçirilib.*

Tədbirdə çıxış edən ədliyyə naziri, III dərəcəli dövlət ədliyyə müşaviri Daşqın Rəhimov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı 2021-ci il 25 iyun tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamın icrası ilə əlaqədar nazirliyin üzərinə düşən vəzifələrin yerinə yetirilməsindən bəhs edib, bu istiqamətdə görülən işlərdən danışıb. Bildirilib ki, nazirliyin və Naxçıvan Dövlət Universitetinin birgə təsdiq etdiyi tədbirlər planına uyğun olaraq fevral ayının 17-dən Hüquqşünaslıq ixtisası üzrə IV kurs tələbələrinin 30 gün ərzində nazirlikdə və tabe qurumlarda istehsalat təcrübəsi keçmələri təmin edilib. Nazir tələbələrin ədliyyə sahəsində nəzəri və praktik biliklərinin artırılmasında belə təcrübənin əhəmiyyətliliyini vurğulayıb, gələcəkdə onların öz peşə seçimində ədliyyə sisteminə maraq göstərəcəklərinə ümidvar olduğunu bildirib.

Sonra nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi, baş ədliyyə müşaviri Səttar Zamanov təcrübə müddətində tələbələrin cəlb olunduqları sahələr və tədris edilən mövzularla bağlı məlumat verib.

Tədbirdə universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin hüquq fənləri kafedrasının müdiri Elman Abbasov çıxış edib, istehsalat təcrübəsinin tələbələrin bilik və bacarıqlarının artırılmasında və peşə seçimində mühüm əhəmiyyətini diqqətə çatdırıb.

Sonda nazirlik tərəfindən təcrübə dövründə fəal iştirak etdiklərinə və biliklərin qiymətləndirilməsində göstərdikləri nəticələrə görə tələbələrin bir qismi diplomlarla təltif olunub.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Şahbuz rayonunda Yeni Azərbaycan Partiyasının gənc fəalları ilə görüş keçirilib



*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə Şahbuz rayonunda Yeni Azərbaycan Partiyasının gənc fəalları ilə görüş keçirilib.*

Tədbiri Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rizvan Məmmədov giriş sözü ilə açaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 6-cı konfransının muxtar respublikamızın ictimai-siyasi həyatında yeni tarixi mərhələnin başlanğıcı olduğunu bildirib. Qeyd edilib ki, konfransda partiya üzvləri qarşısında yeni vəzifələr müəyyənləşdirilib.

Rizvan Məmmədov gənclərlə bu cür görüşlərin əhəmiyyətindən də danışıb. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı yarandığı ilk gündən onun fəaliyyətində gənclərin böyük rolu olub.

Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı 45 ərazi partiya təşkilatını özündə birləşdirir. Təşkilatın 3782 partiya üzvü var ki, onlardan 1897 nəfərini məhz gənclər təşkil edir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin siyasi iradəsinin gücü və tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası çox qısa zamanda ümumxalq partiyasına çevrilib və o zamandan da məhz xalqımızın rifahı, dövlətimizin inkişafı naminə geniş fəaliyyəti ilə cəmiyyətin hər bir təbəqəsinin möhkəm dəstəyini qazanıb.

Yeni Azərbaycan Partiyasının VII Qurultayından, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının VI konfransından geniş bəhs edən Cəbi Quliyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini müasir tələblərə uyğun olaraq davam etdirir. Bu prosesdə partiyamızın gəncləri də fəal iştirak etməlidir. Cəbi Quliyev qarşıda duran vəzifələrin layiqincə və yüksək səviyyədə yerinə yetirilməsi üçün gənclərin üzərinə düşən vəzifələrdən söhbət açıb, bu gün dünyada mövcud olan yeniliklərin gənclər tərəfindən öyrənilməsinin vacibliyini vurğulayıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin sədri Arzu Qasımov çıxışında diqqətə çatdırıb ki, muxtar respublikada gənc nəslin yetişdirilməsi, intellektual potensialının daim zənginləşdirilməsi məqsədilə yaradılan şərait onların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına da yol açır. Yaradılan bu şərait Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin fəaliyyətinə də öz müsbət təsirini göstərib.

Görüşdə birliyin yeni formalaşmış heyəti, fəaliyyət istiqamətləri, o cümlədən gələcək perspektivlərdən söz açılıb.

Gənclər Birliyinin fəaliyyəti haqqında məlumat verən Arzu Qasımov bildirib ki, birlik gənclərlə işi və onların sağlam vətəndaş kimi formalaşmasını, ulu öndərin siyasi xəttinə sədaqət ruhunda tərbiyəsini diqqətdə saxlayır, bu istiqamətdə davamlı tədbirlər və layihələr icra olunur.

Arzu Qasımov göstərilən yüksək etimada, gəncliyin inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə minnətdarlıq edib.

Tədbir diskussiya şəklində davam edib.

**Xəbərlər şöbəsi**

# Novruz bizim ən qədim milli bayramımızdır

## Bahar nə xoş gəlir, ruha dad verir, arzuya, istəyə qol-qanad verir *(esse)*



*Bahar, istəklimsən, başdan-binadan,*
*Ən gözəl qızısan sən təbiətin,*
*Xoşbəxt yaranmısan xoşbəxt anadan,*
*Gözünün odusan şeirin, sənətin,*
*Ən gözəl qızısan sən təbiətin...*

**Bahar!..** Ana təbiətin işvəkar, nazənin, istəkli gözəli! Elimin, ulusumun həyat eşqinin ilki, əzəli! Həyat rişəsi, yaranışın ibtidası, yaşatmaq həvəsi… Qoy fəsillər inciməsin heç biri: qarlı qışım, Qələbə müjdəsilə ba-



harlaşan barlı payızım, qorabişirən yayım. Bu fəsillərin hər birindən min bir çalar, rəng alan baharın xalqımın xilqətində, ruhunda bir özgə yeri var. Bəlkə, ona görə ki, bu xalq yaranışdan təbiət aşiqi, torpağa bağlı olub? Bəlkə, ona görə ki, bahara bənzərlik – torpağa könül verib, can verib torpaqdan güc alıb ucalmaq, halal zəhmətlə min büsat qurmaq, yaratmaqdan, yaşatmaqdan usanmayıb zövq almaq, saflaşmaq, paklaşmaq istəyi bu xalqın xislətindədir? Nuh babamın "torpaq" deyib qədəm basdığı həyatın ilkinindən, Atəşgah odundan, "Əshabi-kəhf" müqəddəsliyindən, Haçadağ vüqarından, Əlincə əyilməzliyindən, Möminə xatın ehtişamından, Araz məhrəmliyindən, Batabatımın mərcan gözlülüyünə, Bakı xəzrisinə, aynagözlü masmavi Xəzərimə, Göygölümə, başıqarlı Kəpəzimə, Şuşanın şüşətək, incitək saf bulaqlarına, əzəmətli dağlarına, yamyaşıl meşələrinə heyranlıqdan gəlir bu sevgi? Yoxsa illərlə yasaq edilsə də, qəlbimizin, ruhumuzun odunda-qorunda yaşada bildiyimiz, türkün mədəniyyət qədimliyinin etalonu olan Novruz bayramından gəlir bu munislik, doğmalıq? Bir də axı neçə-neçə Vətən oğlu təbiətin payız fəsli, xəzan çağında illərdir, həsrət qaldığı Vətən torpağına baş qoyub, son anda bir əli tətikdə, bir əli ilə vüsalına yetdiyi Vətən torpağını ovuclayıb baxışları son dəfə Vətən göylərinə sancılan igidlərimin bu xalqa ömürlük bahar nəsib edən nakam ömürlərisən, bu xalqa əmanətisən, Bahar! Şəhidimin son nəfəsindən, son təbəssümündən açan xarıbülbülümsən, bahar!

*Vətən bağı al-əlvandır,*
*Var üstündə xarıbülbül!*
*Ömür sürməli dövrandır,*
*Səsin gəlsin barı bülbül.*

Azad bülbüllərin susmayacaq cəh-cəhi, durnaların yurd yerinə əminliklə dönüşüsən, bahar! İgidlərimin al qanından rəng almış, bağrı qara al-qırmızı lalələrin səhər mehindən titrəşə-titrəşə əllərinin xınası, duvağının rəngi hələ solmamış bir gözəlin köksündə bir şəhidin məzarına yürüşüsən, bahar! Azad Vətən səmasında dalğalanan yaşıldonlu, mavigözlü, alyanaqlı gözəlimin – sədəgahımın köksündəki ay-ulduzun göy üzündəki ay-ulduzla yarışısan, bahar!

Elə ki havanın şaqqı sındı, dağların güney qarı sellərə dönüb şaqqıldaya-şaqqıldaya özünü yamacların qoynuna atdı, – bahardır demək. Novruzgülü qar altından çırpınıb çıxanda, bənövşə yaz müjdəçisi kimi ellərin gözünün ona dikildiyini görüb ifallanıb boy-



nunu bükəndə, ləçəkləri mehin nəvazişindən nazlana-nazlana torpağa baş əyəndə, – bahardır demək. Buludlar şuxluq, şıltaqlıq edib göyü qeyzləndirər, ildırım çaxar, gözlərindən leysan tökdümü, açılar göy üzünün qaşı-qabağı, – bahardır demək.

Elə ki sular oyanıb, bumbuz bulaqlar durulub səmanın çöhrəsinə güzgü tutdu, xırmanları sovurub dənini dən, samanını saman edən Yel baba çağırışımıza hay verib dəyirmanları işə saldı, qarı nənənin yun əlçimini qaçırdı, – bahardır demək! Elə ki torpaq qar yorğanını başından atıb cana gəldi, isti nəfəsini göylərə leysan ərməğanı üçün göndərdi, Odlar Yurdunun od oğlu Günəşdən ataş alıb bayram tonqalını çatdı, – bahardır demək! Elimin-yurdumun əziz Novruz bayramı gəlir, deməli. Həyat, yaşıllıq nişanəsi olan



səmənimizlə bərabər, gündə bir boy cücərər ümidlərimiz, arzularımız, diləklərimiz. Evlər, həyətlər təmizlənər, abadlaşar, baharın pişvazına çıxmağa tələsər. Analar-nənələr sandıqlarında, düyünçələrində yığıb saxladığı bayramçalıqları ortaya tökər, sevinər qız-gəlinlər, nəvələr. Dünyadan köç edənlərin ruhları anılar, ağsaqqallar, ağbirçəklər yada salınar. Bayramlaşmaq, umu-küsüləri unudub barışmaq, xətir-könül almaq, xəstə, ahıl ziyarəti, böyükdən kiçiyə qayğı, nəvaziş xalqımın incə ruhlu, bahar təbiətli olmasından, saflaşmaq, paklaşmaq, halallaşmaq istəyindən deyilmi?! Başlayar yurdumun min bir büsatlı Novruz növrağı. Nişanlı qızların evlərinə yol alan bir-birindən bəzəkli xonçaların tamaşası göz oxşayar. Qapıpusduya, qulaq falına çıxanlar, üzük falına inananlar nəsiblərini bu bahardan alacaqları sevincilə şadlanar, bacadan şal sallayanlar deyiklilərindən bayramlıqlarını alıb toxtayar. Dəcəllər bir küncə çəkilib çaqqışdırıb udduqları rəngbərəng yumurtaları qalib qəhrəman ədasıyla soyub ləzzətlə yeməyə başlayar, sonra da baba-nənə sovqatı kişmişi, noğulu, çərəzi bölüşdürərlər. İlaxır çərşənbə axşamı qalanan tonqalların alovu şaxə qalxar, "Atılmatıl, çərşənbə, ayna təkin bəxtim açıl, çərşənbə", – deyib niyyət edən kim, "Ağırlığım, uğurluğum odlara", – deyib tonqaldan atlanan kim. İlaxır çərşənbənin səhəri sübh tezdən Qızlar bulağına su üstünə gedən gözəllər yarışa çıxmış kimi durna qatarıtək səf-səf düzülər.

Elə ki qışla yazın mübarizəsində yazın, torpağın rəmzi Kosa ölməyib dirildi, qəlblərdə bu yazın xeyir-bərəkətinə ümid cücərər, bayram şənliyi daha da coşar. El aşığı telli sazı sinəsinə sıxıb salamlayar könül yazını:

*Budur, gəldi bahar fəsli,*
*Dağların lala vaxtıdı.*
*Açılıbdır qızıl güllər,*
*Bülbülün bala vaxtıdı.*

Əlincə ətəklərində, Şərur çöllərində, Cıdır düzündə halay vurub, yallı gedər qız-gəlinlər, qurşaq tutar, cəngə çıxar, cövlan edər igidlər. Qolça qopuzlu Dədəm Qorqud meydana gəlib alqış edib xeyir-dua verər: "Axmaz ikən, Qazılıq dağı, sənin suların axar oldu! Bitməz ikən sənin otların, bitər oldu, Qazılıq dağı, daşa dönmüş keyiklərin qaçar oldu, Qazılıq dağı! Torpaq adlı vüsalımıza yetdik artıq! Naxçıvanla, Kəlbəcərlə, Şuşamızla bir olduq, bölünməz olduq! "Vətən" deyib qara başın bu torpağa qurban deyən ərənlərin ruhlarına, tor-



pağına sahib çıxan məğrur xalqa, qalib xalqa salam olsun! Ulu Tanrının yazdığı torpaq haqqın halal olsun! Əzəli yurd yerlərimizdə Vətən sevgisinin hərarəti ilə alovlanan odumuz-ocağımız daim yanar olsun!" Atəşgahda, Əlincəqalada, Haçadağda, Bəlkə dağında, Ağrıdağda, Kəpəzdə, Qoşqarda, Şuşa dağlarında el olub, bir olub, Tanrı haqqı torpaqlarımızda qurmaq-yaratmaq diləyi ilə yandırdığımız üç tonqalın alovunun şöləsi Zəngəzur dağlarına düşər.

Beləcə, od-ocaq qoxusu ana-nənələrimizin əlinin dadı hopmuş şəkərbura, paxlava, şorqoğal, badambura, fəsəli, içli bayram çöçəsi ilə bayram plovunun məstedici ətrinə qarışar. Süfrələrə yeddiləvin düzülər. Ulularımız dünyanı, həyatı, kainatı dərk etməyə can atmaq müdrikliyi ilə bu bayramda süfrələrimizdə Yerlə Göyü qovuşdurub, Ana torpağın, cücərtinin rəmzi olan yaşıl səməni ilə kainatın – Günəşin, ayın, ulduzun nişanəsi olan şorqoğalı, şəkərburanı, paxlavanı bir süfrədə görüşdürüb.

Elə ki tumurcuqlar düyməldi, qönçələrin gül dodağı qaçdı, "Bu yaz bir başqa yazdır, ellərin keyfi sazdır", – deyə pıçıldayan sevdalı könüllərin də qəlbindəki arzu-dilək tumurcuqlayar, qönçələyər, pöhrələyər. Elə ki arılar çiçəkdən-çiçəyə qonub zəhmət zümzüməsi ilə gülləri, çiçəkləri oxşayar, bu sevdanın şəhdindən bal süzülər, ağaclar bara dolar. Təbiət şəhlə yuyunub, mehlə quruyan, Günəşin zərrin şəfəqləri ilə arınıb-daranan gül-çiçəklə bəzədilmiş min bir rəngli xalı salar çölə-düzə. O xalının göyqurşağı rəngi düşər göy üzünə.

*Təbiət özü də bir kitabxana,*
*Hər dərə məktəbdir, hər dağ müəllim.*



*O ilk ana dilim, o kitab-anam,*
*Bir də əlinizə yetərmi əlim? –*

deyən böyük şairimiz Məmməd Arazın təbirincə söyləsək, "macqal dilində çöl əlifbam"ın təbiət dərsi başlayar beləcə. Bu dərsi keçməyən oxuya bilməz Gəmiqaya adlı daş kitabəmi. Bu günümdən dünənimə qulaq dinşədikcə qədim tarix dərəsindən eşidərsən rəncbər, çölçü, maldar babamın halal zəhmət səsini: "Orağı yağla", "dəryazı döy", "cütü qulaqla", "qoşqun sazla", "dəstələ yemişan kolunu".

*Qara öküz aranda,*
*Çıxar gün qızaranda,*
*Hodaq murada çatar*
*Torpaqdan bar alanda.*

Sübh erkəndən çoban tütəyinin yanıqlı səsi quşların cəh-cəhinə qarışanda qoyunquzu yarpız, əvəlik, baldırğan ətirli dağ döşünə, bulaq başına, yamaclara yayılar. Yenicə torpağın altından baş qaldıran quşəppəyidən, cincilimdən, yarpızdan qırpıdan maldavar axşam qaş qaralanda yelinləri dolu qayıdar örüşdən. Mənim sağıcı, sayaçı nənəm onları oxşaya-oxşaya sağar:

*Dağlardan endi qoyun,*
*Dolaşdı bəndi qoyun.*
*Süd-qaymağı bol eylə,*
*Sevindir kəndi, qoyun.*

Beləcə, dolub daşar badyalarda, sərniclərdə süd, bulama, ağüz. Bol olar kəndlinin pendiri, qatığı, qaymağı.

Vaxt olub yarpız, kəklikotu, əvəlik, quşəppəyi, cincilim, çiriş, cacıq – dağların ruzi payı, bağların ərik, tut qurusu, tənəklərin kişmiş-



varı son ümid yeri olub bu elin, bu ulusun. Amma sınmayıb, əyilməyib, qanıyla, canıyla satın alıb torpağı yağlardan. Babalarımızın zəhmət əlifbası ilə öyrəndiyimiz halallıq dərsi doldurub təknələrimizi. Həm bu yurdu qoruyub, həm yurda dayaq olmuşuq, bu torpağın ver dilini, al dilini öyrənməklə artırmışıq ruzimizi, gözəlləşib abad olub yurd yerimiz. Tanımarsan indi boz çöllərdən zəmi-zəmi dalğalanan, tingting yaşıllaşan, qabarlı əllərlə, alın təri ilə gülüstana döndərilən yurd yerini. Bir vaxt insan mehri üçün qəribsəyən bu torpaq guruldayan, nərildəyən texnikalarla altı-üstünə çevrildikcə cana gəlir, bara dolur, varın qoyur ortaya. Bir zamanlar aşıb-daşan, nəğmələri nisgil dolu Arpaçayım bu gün zəhmət, hünər dastanından söhbət açır.

***Buna görə aşiqinəm, Bahar! Məramımda, xislətimdə, ruhumdasan! Təbiətin coşan-çağlayan bəxtəvər çağı! Yaranışın, oyanışın, dirçəlişin ilki-əzəli! Şeiriyyətim, ülviyyətim! Arzuların, ümidlərin tumurcuq-tumurcuq boy atdığı, Günəş hərarətli, torpaq ətirli Bahar! Çiçək ətirli zərif yellərinin əsintisi ruhumu oxşadıqca həyat işartılarımı tonqal-tonqal alovlandıran Bahar! Ana təbiətin ən xoş növrağı, səxavət dəmi! Çiçəyin böcəyə, gülün bülbülə işvə-naz çağı! Qaraxallı alyanaqtək allanan çətir-çətir lalələrin bayramı Bahar! Ruhumu qönçə-qönçə pərvazlandıran Bahar! Elimə-obama sevinc, xoşbəxtlik, ruzi-bərəkət, səadət gətir! Göz yaşlarını güllərin şəbnəmi, qan-qadanı lalələrin qan rəngi, qəzəbləri, nifrətləri, kinləri ildırımın ahəngi əvəzləsin! Leysan-leysan yu dərdləri, ələmləri! Çaylarında, göllərində arınaq, durulaq! Arzularımız çölün-düzün kimi çiçək açsın! Günəşinin atəşindən od aldıqca ürəklər, çin olsun qoy ən xoş arzu-diləklər! Gəl baharım, çiçək-çiçək, ləçək-ləçək, ətir-ətir, çətir-çətir ruhuma hop! Aşiqinəm, gözəl bahar!***

✍ **Mehriban SULTAN**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*







# O, xalq bayramıdır

## Novruz bayramı münasibətilə tədbirlər keçirilib



*Muxtar respublikanın ali təhsil ocaqlarında qədim tarixə və zəngin adətlərə malik Novruz bayramı qeyd olunub.*

Naxçıvan Dövlət Universitetində keçirilən Novruz şənliyində rektor, dosent Elbrus İsayev Novruzun xalqımızın ən əziz bayramlarından biri olduğunu qeyd edib. Bayramın ölkəmizdə dövlət səviyyəsində qeyd olunmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğu bildirilib. Diqqətə çatdırılıb ki, Novruz 2009-cu il sentyabrın 30-da YUNESKO tərəfindən Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasında martın 21-i Beynəlxalq Novruz Günü elan olunub.Vurğulanıb ki, Müzəffər Ali Baş Komandanımız və qüdrətli Ordumuzun sayəsində artıq işğaldan azad edilən qədim yurd yerlərimizdə də tonqallar qalanır, ölkəmiz bu milli bayramı yüksək əhvali-ruhiyyə ilə qeyd edir.

Universitetin həyətində möhtəşəm Novruz tonqalı alovlandırılıb, tələbələr tonqal ətrafında dövrə vuraraq yallı rəqsini ifa edib, maraqlı konsert proqramı ilə çıxış ediblər. Novruzun rəmzlərindən olan Kosa və Keçəlin məzəli çıxışı, yumurta döyüşdürməsi maraqla qarşılanıb.

Bayram şirniyyatı ilə bəzədilmiş çay süfrəsi ətrafında davam edən tədbirdə müəllim və tələbələrin hazırladıqları dekorativ-tətbiqi sənətkarlığın müxtəlif sahələrinə aid sənət nümunələri nümayiş etdirilib. Konsert proqramında Xalq Çalğı alətləri kafedrasının “Buta” instrumental ansamblının, Tələbə Teatr Studiyasının, “Naxçıvanqala” ritm qrupunun, Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin çıxışları maraqla qarşılanıb. Əcnəbi tələbələrin də milli bayramımızda azərbaycanlı tələbələrlə birgəlik nümayiş etdirməsi tədbir iştirakçılarına xoş ovqat bəxş edib. Tədbirdə, həmçinin idmanın güləş növündə təmsil olunan gənclərin nümunəvi çıxışları sərgilənib.



“Naxçıvan” Universitetində keçirilən Novruz şənliyində universitetin rektoru, dosent Nurlana Əliyeva iştirakçıları qədim tarixi ənənəsi olan milli bayramımız münasibətilə təbrik edib. Novruz bayramının xalqımızın milli adət-ənənələrini özündə əks etdirən ən qədim bayramlardan olduğunu deyən rektor kollektivə xoş arzularını çatdırıb.

Sonra tədbir bayramın tarixi dəyərini, xalqımızın adət-ənənələrini, Novruz rəmzlərini əks etdirən nümunələr, tələbələrin hazırladıqları səhnəciklərlə davam etdirilib.

Sonda universitetin həyətində möhtəşəm Novruz tonqalı alovlandırılıb, müəllimlər və tələbələr tonqal ətrafında dövrə vuraraq “Yallı” rəqsini ifa ediblər.

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən tədbirdə ali təhsil ocağının müəllim kollektivini və tələbələri Novruz bayramı münasibətilə təbrik edən institutun rektoru Azad Novruzov bildirib ki, Novruz xalqımızın ən qədim bayramlarından biridir. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında



birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaradıb.

Tədbirdə bayram tonqalı alovlandırılıb, tələbələrin hazırladıqları bayram xonçaları və rəsm sərgisinə baxış keçirilib.

Tədbirin davamında gənclər yallı ifa edib, mahnı və şeirlər səsləndiriblər.

**Xəbərlər şöbəsi**

* * *



*Novruz bayramı münasibətilə Naxçıvan şəhərində yerləşən “Sahil kafe”də şəhid və qazi övladlarının və sağlamlıq imkanları məhdud istedadlı gənclərin iştirakı ilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev bildirib ki, muxtar respublikada sosial qayğıya ehtiyacı olan uşaqlara göstərilən yüksək dövlət qayğısının ifadəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Dövlət proqramları təsdiq olunub və ötən dövr ərzində uğurla icra edilib. Sağlamlıq imkanları məhdud uşaqların təhsil müəssisələrinə cəlbi istiqamətində kompleks tədbirlər həyata keçirilib, onların tibbi reabilitasiyası istiqamətində yeniliklərin tətbiqi diqqət mərkəzində saxlanılıb. Nicat Babayev sosial qayğıya ehtiyacı olan uşaqlara göstərilən yüksək qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev isə iştirakçıları Novruz bayramı münasibətilə təbrik edərək bildirib ki, Vətən müharibəsində şəhid və qazilərimizin göstərdiyi şücaət bir vətənpərvərlik məktəbidir. Bu məktəbi öyrənmək, şəhidlərimizin xatirəsinə hörmətlə, qazilərimizə diqqət və qayğı ilə yanaşmaq hər birimizin vətəndaşlıq borcudur.

İstedadlı sağlamlıq imkanları məhdud gənc Nail Hacıyev və sosial könüllü Fatma Bağırova göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirin bədii hissəsi isə sağlamlıq imkanları məhdud şəxslərdən ibarət “İnam” və sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlardan ibarət “Ümid” musiqi qruplarının ifaları ilə başlayıb. Sonra nazirliyin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində keçirilən məşğələlərdə istedadları ilə fərqlənən uşaqlar müxtəlif musiqi və şeir ifaları səsləndiriblər. Bayram personajları Kosa və Keçəlin xüsusi rəng qatdığı tədbirin davamında sosial könüllülər və sağlamlıq imkanları məhdud gənclər tərəfindən birgə hazırlanmış milli rəqs nümunələri və səhnəciklər iştirakçılarda xoş ovqat yaradıb.

Tədbirin sonunda uşaqlara bayram hədiyyələri də təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Son zamanlar muxtar diyarımızda Novruz bayramı ərəfəsində ənənə halını almış “Novruz qatarı” gənclərimizə xoş ovqat, əsl bayram əhval-ruhiyyəsi bəxş etmək üçün 22 mart tarixində Naxçıvan Dəmiryol Stansiyasından Ordubad rayonuna yola düşəcək.




Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə keçirilən “Novruz qatarı” ekskursiyasında üç müasirtipli sərnişin vaqonu hazırlanaraq Naxçıvan-Ordubad-Naxçıvan istiqamətində xəttə buraxılacaq. Səfər ərzində vaqonlarda sərnişinlərə xüsusi xidmət göstəriləcək, çay və müxtəlif çeşidli bayram şirniyyatları veriləcək. Tur çərçivəsində gənclər Novruz bayramı münasibətilə hər il Ordubad rayonunda təşkil olunan bayram tədbirlərində və Xanbəzəmə mərasimində iştirak edəcək, rayon Tarix-Diyarşünaslıq Muzeyini ziyarət edəcək, “Dübəndi” istirahət mərkəzində maraqlı və səmərəli vaxt keçirəcəklər.

Bildirək ki, ekskursiyanın keçirilməsində məqsəd gənclərin Novruz bayramı tətilində asudə vaxtlarının mənalı təşkili, onların qədim diyarımız olan Ordubad rayonunda keçirilən maraqlı el şənliklərində iştirakının təmin edilməsidir.

**✍ Məcid RƏŞADƏTOĞLU**

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Bahar gəldi-Yaz gəldi” adlı sərgi təşkil edilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, milli varlığımızı əks etdirən Novruz təbiətin oyanışını müjdələyən, ümid, bolluq və bərəkət dolu bayramdır. Bu gün sevinirik, qürurluyuq həm də ona görə ki, insanlarımızı bir və həmrəy edən, milli dəyərlərimizi özündə daşıyan Novruz bayramını Şuşada, Cıdır düzündə və digər işğaldan azad edilən qədim torpaqlarımızda da qeyd edə bilirik.

Sərgidə çıxış edənlər tarixi keçmişimizi, adət-ənənələrimizi yaşadan bahar bayramı ilə bağlı fikirlərini bölüşüblər.

Sonra sərgiyə baxış olub. Qeyd edək ki, 30 rəssamın 40-a yaxın əl işinin nümayiş etdirildiyi sərgidə əsl bayram əhval-ruhiyyəsi hiss olunurdu. Burada Ülviyyə Həmzəyevanın “Xonça”, Nəsrullah Musayevin “Bayram”, Həbibə Allahverdiyevanın “Nəsillərdən ötürülən izlər”, Sabir Məmmədovun “Dədə Qorqud”, Telman Abdinovun “Xalçaçı qız”, Qəhrəman Tağıyevin “Bayram” və digər rəssamların əl işləri maraqla qarşılanıb. Sərgi bir həftə davam edəcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Şuşanın Novruz büsatı




Hər il Novruzda təbiət ılıq yaz Günəşinin hərarətindən bir daha cana gəlib oyandıqca doğma torpağımız bu dünyanın ən gözəl guşəsi kimi insana gəl-gəl deyir. Ötən payızdan torpağa sığınıb baharın gəlişini gözləyən novruzçiçəyi gözünü açıb yeni bir həyata başladıqca Bakıdan Gəncəyə, Şirvandan Şəkiyə, Naxçıvandan Şuşaya qədər Vətənimizin hər yerində yeni bir büsat, Novruz büsatı boy atır. Torpağının bütövlüyünə qovuşmuş, qalib Azərbaycana bahar gəlmişdir!

Novruz hər il Azərbaycanda böyük təntənə il qarşılanır. Hətta doğma Qarabağımız 30 il düşmən tapdağında olanda da xalqımız bu el bayramında “Uca Allah gələn Novruzu bizlərə Şuşada keçirməyi nəsib etsin” – arzusu ilə bir-birini aramış, ürək sözlərini çatdırmışdır. Müzəffər Ordumuz Qarabağı düşmən işğalından azad etdikdən sonra artıq ötən ildən ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin Şuşada, Cıdır düzündə şölələndirdiyi ilk Novruz tonqalı bir daha bu torpaqlara yağı düşmən ayağının dəyməyəcəyini, uşaqlarımızı daha xoşbəxt, daha təhlükəsiz gələcək gözlədiyini bütün dünyaya elan etdi. Bu həm də Novruz tonqalı timsalında bütün dünyanı sülhə çağıran, bu torpaqlarda qara günlərin artıq geridə qaldığını və bundan sonra Qarabağda yalnız və yalnız quruculuğun, dinc həyatın və mədəniyyətin yaşayacağının bəyanı idi.

Novruzun Qarabağda, Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada qarşılanması Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları üçün çox əlamətdar hadisədir. Əgər 44 günlük şanlı Vətən müharibəsi dövründə dünya Azərbaycan xalqının dəmir yumruq kimi möhkəm birliyinin şahidi olmuşdusa, Şuşada keçirilən hər Novruz bayramı da bu şəhərin, eləcə də bütün Qarabağın azərbaycanlılar üçün nə qədər əziz olduğunu da bir daha göstərir. Artıq başı üzərindəki qara buludları yox olmuş Şuşasına qovuşmuş Günəş kimi hər kəs buradakı Novruz büsatını da bərabər yaşamaq istəyir.

Şuşa artıq mədəni dünyanın cazibə mərkəzidir. Ölkə başçımız 2022-ci ili “Şuşa ili” elan etməklə, əslində, bütün dünyanın diqqətini yenidən bu şəhərə, Qarabağa və bütün Azərbaycana cəlb etdi. Bundan sonra ölkəmizin Mədəniyyət Paytaxtı olmaqla, Şuşa xalqımızın qədim mədəniyyətinin dünyaya tanıdılmasının, torpaq sevgisinin ən sonunda mütləq qalib gələcəyinin canlı təbliğatçısı olacaq. İndi hamını özünə səsləyən Şuşa qəhrəman şəhidlərimizin dastana döndüyü bu torpaqlarda yaradılacaq yeni büsatı ilə çox yaxında cənnətin qapısı kimi bütün dünyanın üzünə açılacaq, insanların ürəyində yeni gözəl arzular oyanacaq. Bu gün isə burada, öz torpağında Novruzu qarşılayan şuşalıların, qəhrəman əsgərlərimizin, xarıbülbülün sevgisinin şirin vüsalına qovuşmuş bütün Azərbaycan xalqının bir arzusu var – qoy heç zaman bahar Günəşimiz sönməsin, bir daha övladlar şəhid olmasın.

**Şəlalə CABBAROVA**
***Naxçıvan şəhər Heydər Əliyev adına məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi***

## “Beynəlxalq Poeziya Günü” qeyd olunub

*Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Kərimov bildirib ki, 1999-cu ildə YUNESKO-nun 30-cu iclasında 21 mart tarixi Beynəlxalq Poeziya Günü elan olunmuşdur. Azərbaycanda isə Beynəlxalq Poeziya Günü 2007-ci ildən etibarən qeyd olunur.*

Vurğulanıb ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda poeziya sənətinin inkişafına böyük qayğı göstərilir, Naxçıvanda yaşayıb-yaradan şair və yazıçıların əməyi yüksək qiymətləndirilir. Qədim diyarımızda görkəmli şairlərin yubileyləri dövlət səviyyəsində qeyd olunur, onların ev-muzeyləri yaradılır. Hər il böyük romantik şairimiz Hüseyn Cavidin anadan olduğu gün Naxçıvanda Hüseyn Cavid Poeziya Günü keçirilir. Şair və yazıçılarımız orden və medallara, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, Prezident mükafatına layiq görülürlər.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli



Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”nda Azərbaycan və dünya ədəbiyyatının da klassik poeziya nümunələri vardır. Bu Sərəncam mütaliə ilə bərabər, gözəl poeziya nümunələrinin təbliği üçün də geniş imkanlar açır. Həsən Kərimov muxtar respublikada mədəniyyətin və incəsənətin inkişafına göstərdiyi böyük diqqət və qayğıya görə muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev “Dünyanın söz sənəti günü”, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov “Poeziya: fikirlərlə bəzədilən söz sarayı” mövzularında çıxış ediblər.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorları milli və dünya ədəbiyyatından şeirləri bədii qiraət edib. Sonra muzeyin ekspozisiyasına baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Dədəmiz Qorqud demişdir:



*-Torpağın yurd, Vətən olması üçün iki şərt lazımdır: biri odur ki, torpağı gərək əkib-becərəsən, o birisi odur ki, torpağı gərək yağılardan qoruyasan. Əgər torpağı əkib-becərmədin, qorumağa dəyməz. Torpağı qoruya bilmədin, əkib-becərməyə dəyməz.*

* * *

*-Bəy igid mərdlik göstərər, elini, obasını xilas edər.*

* * *

*-Oğul atanın yetirməsi, iki gözünün biridir.*

* * *

*-İgidin atını at, oxunu ox keçməz.*

* * *

*-Ana haqqı, Tanrı haqqı.*

* * *

*-Bu dünyanı ərənlər əql ilə bulublar.*

* * *

*-Qarşı yatan qara dağların sənə yaylaq olsun.*

* * *

*-Qardaşlı igidlər qalxar-qopar olar.*

* * *

*-El birliyi sel gücüdür, yıxar keçər, önündə duran olmaz.*

* * *

*-Haqq yandıran çırağın daim yansın!*

* * *

*-Ayıq başa, qoçaq ələ zaval gəlməz.*

* * *

*-Ağıllı oğul ocağının közüdür.*

## Meydan tamaşaları peşəkar teatr səhnəsinə aparan yolda mühüm təməl rolunu oynayır

***Qədim türk xalqlarının, o cümlədən azərbaycanlıların folklor yaradıcılığı repertuarında meydan tamaşalarının özünəməxsus yeri var. Belə tamaşaların kökləri xalqın məişəti, həyat tərzi, dünyagörüşü, toy və mərasim ənənələri ilə bağlıdır. Məişətlə bağlı müxtəlif əyləncələr zaman keçdikcə daha kütləvi xarakter alaraq təkmilləşib, xalq yaradıcılığı xəzinəsinə daxil olub. Mövzu ilə bağlı həmsöhbətim AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova oldu.***



Həmsöhbətim bildirdi ki, meydan tamaşaları musiqi, rəqs, məzhəkə, nəqletmə, yarışma və başqa ünsürlərdən yaranıb. "Meydan tamaşaları" dedikdə, əsasən, ölkəmizdə oynanılan təhkiyəli, süjetli xalq oyunları nəzərdə tutulur. Xalqın özü qədər qədim olan, oyunçu və tamaşaçı arasında səmimi münasibətlər şəraitində göstərilən bu tamaşalar masqarabazlar, nağılçılar, aşıqlar, məzhəkəçilər, kukla oyunçuları tərəfindən inkişaf etdirilərək ənənəvi xalq tamaşalarının özəyini yaradıb. Məişətlə bağlı müxtəlif əyləncələr zaman keçdikcə daha kütləvi xarakter alaraq təkmilləşib, xalq yaradıcılığı xəzinəsinə daxil olub. Açıq havada, şəhər meydanlarında, kəndlərdə geniş sahələrdə, karvansaraylarda, bazar və küçələrdə göstərilən meydan tamaşaları ənənəvi xalq teatrıdır.

Folklorşünas alim Naxçıvanda bu gün də qorunub saxlanılan və təqdim edilən "Qodu-qodu" adlı bir kukla oyunumuz haqqında da məlumat verdi: "Mərasim tamaşalarından olan "Qodu-qodu" adlı kütləvi xalq oyunu qədim zamanlardan aramsız yağan və əkinə-biçinə ziyan vuran yağışın kəsilməsi üçün keçirilirdi. Oyunda kuklalar bəzədilir və yağışın altında qapı-qapı gəzərək qodunun şəninə nəğmələr oxunur, onu öyürdülər. Onları musiqiçilər müşayiət edir. Qodunu Günəşin rəmzi olaraq qırmızı parçaya büküb Günəşin çıxmasını, yağışın kəsilməsini arzulayardılar".

Həmsöhbətim onu da qeyd etdi ki, əyləncəli meydan tamaşaları daha çox yazın gəlişi ilə əlaqələndirilir. Xüsusilə bayram günlərində, Novruz mərasimi günlərində nümayiş etdirilirdi. Meydan tamaşaları nə qədər komik məzmunda olsa da, tərbiyəvi əhəmiyyət daşıyan oyunlar repertuarda özünə daha çox yer tuturdu. Bu tamaşalar xalqın qəmini, çətinliklərini gülüşlə yüngülləşdirməkdən ötrü həyata keçirilirdi. Novruz şənliklərinin əsas personajları, təbii ki, Kosa və Keçəldir. Onların oyunbazlığı bayrama xüsusi şux ovqat qatar. Kosa və Keçəl obrazları qışla yazın mübarizəsini əks etdirir: Keçəllə Kosanın məzhəkəli tamaşası müqabilində yazla qışın bir-biri ilə mübarizəsi əks olunur. Qış öz yerini yaza təhvil vermək istəmir, yaz isə bu yeri əldə etməyə çalışır. Kosa ilə Keçəlin məzhəkəsinin rəmzi bundan ibarətdir. Çox qədim mənbələrdə Novruz mərasimi ilə bağlı bu obrazlardan istifadə olunub. Onlar ta qədim zamanlarda açıq havada keçirilən meydan tamaşasını gözəlləşdiriblər. Keçəl burada oyunbaz rolundadır. Gözübağlıca, kəndirbaz oyunlarında da Keçəlin rolu var. Bəzən Kosanı, Keçəli bu bayramda inkar edirlər, amma bu düzgün deyil. Keçəl bəzi tamaşalarda keçi adı ilə çıxış edir, amma bu şənlikdə keçi, Keçəl, Kosanın öz yeri var. Novruz bayramında bu obrazlar təbiətin oyanış dövründə gülüş, səmimiyyət doğurur. Kosa torpağın rəmzidir, qışla yazın arasında nə qədər mübarizə getsə də, nəticədə, Kosa-torpaq ölmür, dirilir, təbiət oyanır. Hər şeydən əvvəl, bu şənlik əkinçilik bayramını əks etdirmək üçündür.



Bu gün də qorunub yaşadılan meydan tamaşalarından biri "Xanbəzəmə" oyunudur ki, elə müsahibimlə söhbətimizi bu istiqamətdə davam etdirdik: "Bu oyun martın 21, 22, 23-də Ordubad şəhərində, eləcə də Nüsnüs, Vənənd, Düylün, Əylis və başqa kəndlərdə təşkil olunur. Şəhərin "Sərşəhər" deyilən meydanında Xan bəzədilir. İndi isə bu mərasim həm də şəhərin Mingis meydanında həyata keçirilir. Bir nəfər qaraqabaq adamı xan kimi bəzəyib taxt-taca əyləşdirirlər. Xan meydana at üstündə daxil olur. Ətrafındakı vəzir, vəkil onu qoruyur. İki nəfər yelpiklə xanı yelləyir. Təlxəklər onu güldürməyə çalışırlar. Oyunun şərtinə əsasən xan təlxəklərin hərəkətlərinə gülməməlidir. Əgər gülərsə, meydanda və ya mərasimin təşkil olunduğu yerdə, mövcud olan hovuzda camaat onu suya basır. Üç gün ərzində bütün göstərilən məzəli hərəkətlərə dodağı belə qaçmayan "xan" rolunu icra edən şəxs xalq tərəfindən mükafatlandırılır.

AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova bildirdi: " Naxçıvan Muxtar Respublikasının əraziləri mühafizəkar folklor mühitidir. Ərazidə folklor janrları, o cümlədən meydan tamaşaları və xalq oyunları daha aktiv yaranma və işlənmə dairəsindədir. Bu baxımdan, ərazidə xalq yaradıcılığı örnəklərinin toplanması, nəşri və təbliği hər zaman əsas məsələlərdən biri olmuşdur. Xalq yaradıcılığı günlərinin keçirilməsi ilə bağlı 2009-cu il 7 fevral tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı Sərəncam bu sahədə çoxşaxəli və təqdirəlayiq işlərin həyata keçirilməsi ilə nəticələndi. Eləcə də 2021-ci il sentyabr ayının 21-də Ali Məclisin Sədri AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə keçirilən görüşdə Naxçıvanşünaslıqla bağlı görülməsi vacib olan tədbirlərin keçirilməsi üçün tövsiyə və tapşırıqlarını verdi. Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşlarına verdiyi tapşırıqlar milli mədəniyyətimizi ehtiva edən məsələlərdəndir. Bunlar hər bölgə üzrə folklor örnəklərinin, o cümlədən min illər ərzində formalaşmış xalq deyimlərimizin – atalar sözlərinin, tapmacaların, məsəllərin toplanmasıdır. Artıq bölmədə həmin tapşırıqların icrasına başlanılıb. Ümumiyyətlə, Naxçıvan folklorunun toplanması, tədqiqi və təbliği məsələləri AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin əsas işlərindən biridir. Şöbə əməkdaşları da öz işlərini bu istiqamətdə qurublar".

*Biz də milli dəyərlərimizin, milli folklorumuzun yaşadılması və təbliği kimi məsul və şərəfli sahədə çalışan tədqiqatçılarımıza gələcək fəaliyyətlərində uğurlar arzu edirik.*

**Gülcamal TAHİROVA**

## Ekoloji monitorinq və dezinfeksiya işləri aparılıb



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən növbəti monitorinq Arpaçay Su Anbarı və Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksində keçirilib. Nazirliyin əməkdaşları su anbarından nümunələr götürüb, müasir fotofleks aparatı vasitəsilə ilkin analizlər aparıblar. Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin əməkdaşları isə təlimata uyğun olaraq su anbarı ərazisində əhəngli-xlorlu məhlul vasitəsilə dərmanlama və dezinfeksiya işləri aparıblar.

Anbardakı nizamlayıcı qurğuların və kompleksi su ilə təmin edən boruların ətrafları dərmanlanıb. Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin ərazisi, buradakı sanitar qovşaqlar, yardımçı otaqlar, həmçinin kompleksə məxsus iş otaqları və mətbəx hissə dezinfeksiya edilib.

**Xəbərlər şöbəsi**

## Şahmat üzrə reytinq yarışı başa çatıb



*Naxçıvan Şahmat Mərkəzində təşkil olunan "İkinci bazar günü" beynəlxalq reytinq yarışına (müxtəlif yaş və reytinqli) yekun vurulub.*

Azərbaycanın şəhər və rayonlarının, eyni zamanda qonşu ölkələrin şahmatçılarının mübarizə apardığı turnir İsveçrə sistemi üzrə 9 turdan ibarət olub və 36 zəka sahibi mübarizə aparıb. Yarışın yekun nəticəsinə əsasən 7,5 xal toplayan İran İslam Respublikasının şahmatçısı Musəvi Seyid İmadəddin (1960) qalib adını qazanıb. Eyni xal toplayan Bakı şahmatçısı Aqil İsrailov (1774) ikinci olub. Digər Bakı təmsilçisi Habil Cavadov (1907) isə turniri 6,5 xalla üçüncü pillədə başa vurub. Əmsalı 0-1500 olan şahmatçılar arasında Emil Mirzəyev (1279) ən yaxşı nəticəni göstərib və mükafata layiq görülüb. Turnirin ən kiçik iştirakçısı Amira İsmayılova isə xüsusi mükafata layiq görülüb.

Sonda qaliblər mükafatlandırılıb.

Qeyd edək ki, daha reytinqli şahmatçılar arasında keçirilən "İkinci bazar günü" beynəlxalq reytinq statuslu yarışa isə bu gün yekun vurulacaq. Naxçıvan Şahmat Mərkəzində təşkil edilən həmin yarışda Naxçıvan şahmatçıları ilə yanaşı, Azərbaycan, Gürcüstan, İran və Türkiyədən olmaqla, ümumilikdə, 10 zəka sahibi iştirak edir. Qrossmeyster, FIDE ustası və beynəlxalq ustaların mübarizə apardığı yarış 9 turdan ibarətdir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə Şərur, Kəngərli, Culfa və Şahbuz rayon ümumtəhsil məktəblərində təhsil alan şahmatçılar arasında Novruz bayramı münasibətilə şahmat yarışı təşkil olunub.

Qaliblər təşkilatçılar tərəfindən mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**


### İtmişdir

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının (VÖEN-0200156031) qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Quliyev Rüfət Müşfiq oğlunun adına olan GH-01/000796 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Abbasov İsa Əli oğlunun adına verilmiş JN-687A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnaməsi" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 247